# “Kredo”nun 1000-ci sayı...

**Əli Rza Xələfli:** 17 cildlik, 21 illik “Kredo”nun hər cildi bir Azərbaycannamədir, bir Qarabağnamədir... İndi 1000-ci sayıdır...

Əzizim Nəzirməmməd Zöhrablı, dünyanın gözümüzdə ucuzlaşdığı indiki günlərdə sənin yazını təşnəliklə oxudum... Şübhəsiz, istedadla obyektiv mövqedən, ucuz tərifə uymadan, sənətkarlıqla yazılmış qeydləri ruhuma su kimi içdim... Bir daha inandım, dünyamız və günümüz yalnız ağlı topuğunda olanların ixtiyarında deyil...

Bizim kredomuz insanın gələcəyə inamını qorumaqdır... Zənnimcə düz yoldayıq... Elə sən özün də bunu demək istəmisən...

Fb fəal məkandır... Dostlarımız Qəzənfər Kazımovun, Kamil Allahyarovun, Vaqif Yusiflinin, Təyyar Salamoğlunun, Xeybər Göyyallının, Salatın Əhmədlinin, Minəxanım Təkəlinin, Şəfəq Nasirin, Gülarə Munisin, Razim Əmiraslanlının, Teymur Kərimlinin, Yadulla Ağazadənin, Ağamir Cavadın, Qəşəm İsabəylinin, Adil Həsənoğlunun, Kamil Bəşirovun, Nəzakət Məmmədovanın, Nurlanə Telmanqızının, Gülnar Səmanın, Meyxoş Abdullanın, Balayar Sadiqin, Bilal Alarlının, Vəliyulla Novruzun, Gülbala Teymurun, Əfrayım Abbasın, Ədalət Salmanın, Mirzə Mirimlinin, Musa Aslanxanlının, Azər Alpayın, Qurban Bayramovun, Cavanşir Yusiflinin, Ağacəfər Həsənlinin, Azər Abdullanın, Sevindik Nəsiboğlunun, Əjdər Olun, Asif Rüstəmlinin, Firuz Mustafanın, Elçin Mehrəliyevin, Şəddat Cəfərovun, Elçin Kamalın, Aslan Salmansoyun, Yusif Dirilinin, Nəriman Mahmudun, Seyfəddin Rzasoyun, Hidayət Səfərlinin, Şakir Əlifoğlunun, Elxan Məmmədlinin, Hafiz Rüstəmin, Vüqar Əhmədin, Əlirza Həsrətin, Eldar Səfanın, Vüsal Nurunun, Nizami Tağısoyun, Gülhüseyn Kazımovun, Məcnun Göyçəlinin, Əliabbas Bağırovun, İslam Qəriblinin, İsmixan Osmanlının, İsmayıl Kazımovun, Tariyel Abbaslının, Yasin Xəlillinin, Nurəddin Mirzəxanlının, Rəfail İncəyurdun, Rəfail Həbiboğlunun, Əziz Musanın, Malik Əhmədoğlunun, Rövşən Nəsiboğlunun, Əkbər Qoşalının, Əli İsgəndərovun, Günay Novruzun, Vüsal Hicranoğlunun, İltimas Səmiminin... mənəvi dəstəyini hiss etmişik.

İrandan Araz Əhmədoğlu, Səhra Rzayi, Türkiyədən Fəthi Gədikli, ustad İrfan Ünver Nəsrəddinoğlu, Amerikadan Azər Əhmədov, Anar Əhmədov, Xaqani İmanov... bizi izləyib, düz yolda olduğumuzu təqdir ediblər. Ağacəfər Həsənlidən - günümüzün ustad sənətkarından gələn səs də Nəzir Məmməd Zöhrablının qeydlərinə dəstəkdir... Hə dostlar, sevinmək məqamıdır... Əlbəttə, söhbət Fb məkanından gedir...

**Qəzənfər Kazımov:** “Kredo” haqqında mən nə deyim? “Kredo” bizi biz elədi. Biz də “Kredo”nu “Kredo” elədik. Bütün bunlara - bu ağır və çox böyük şərəfli işə Əli Rza Xələfli dözdü. Bizi toplamaqla özünə əbədilik qazandırdı. Xoşbəxt davamını arzulayırıq.

**Ağacəfər Həsənli:** Söhbət dəyərlərimizi qoruyan qəzetdən gedir. Və o qəzetin fədakar baş redaktoru Əli Rza Xələflinin “Kredo”sundan. Uğurlar arzulayırıq.

**Mübariz Hümmətoğlu:** “Kredo” Əli Rza Xələflinin həyat kredosudur.

**İlham Zeynallı:** “Kredo” qəzetinin 1000-ci sayı, 21 yaşı! Əzizim, Nəzirməmməd, mən elə bilirdim ki, Əli Rza müəllimin “Kredo”sunun elə min il yaşı var. Sən demə, 21 yaş. Amma bu, milli mətbuatımızın 21 yaşlı növcavanı çiyinlərində min illik dərdlərimizi daşıyır, - desəm, yəqin ki, yanılmaram. “Kredo” əslində, elə Əli Rza Xələflinin özüdür. Qayım-qədim dəyərlərlə zəngin, milli ruhla ləbələb dolu, dağ şəlaləsi kimi dupduru, ana laylası kimi şirin... min saylı bu “Kredo” həmişə nədənsə, parlaq imzaların, istedadlı yazıların “doğum evi”ni xatırladıb mənə. İnşallah, bu barədə daha ətraflı düşüncələrimi bölüşərəm. İndiliksə, dostumuz Əli Rza Xələflinin “əziz övladı” “Kredo”nun 1000-ci sayı münasibətilə ürəkdən təbrik edir və sənə də - əzizim Nəzirməmməd bu gözəl yazıya görə təşəkkür edirəm.

**Əli Rza Xələfli:** Sözümün dəyərini görən özümü görəndir

**Kifayət Türksoy:** Uğurlarınız bol olsun Əli Rza müəllim, Siz böyük uğurlara layiq yazarımızsınız. Yolunuz açıq, işiniz avand olsun.

**Hafiz Rüstəm:** Əli Rza, mübaliğəsiz, böyük söz adamıdır. Gör nə vaxtdandır onun möhtəşəm “Kredo”sunda çıxış etmirəm. Ancaq bu yubiley nömrəsinə qədər (1000-ci nömrə) “Kredo”nun 800-cü sayına (08 noyabr 2014) yazdığım məqaləmi xatırlayıram. Orada sözümü demişəm.

**Novruz Sirikli Həsənov:** Uğurlarınız davamlı və bol olsun, Əli Rza müəllim. Həmişəki kimi sükan arxasında olasınız. Lazım olan qaranlıqları yüksək səviyyədə işıqlandıraraq xalqa çatdırasınız. Ziyalılıqdan, ağsaqqallılıqdan əskik olmayasınız.

**Əli İsgəndərov:** Bu gün ötən klassik ədibləri hey xatırlayır, onlara hey rəhmət oxumaqla bərabər zəmanədən gileylənirik. Nə yaxşı ki, siz və sizin kimilər var. Deməli, Azərbaycan ədəbi mühiti boş deyil. Var olun! Xidmətləriniz bu xalqa çoxdur və hələ bundan sonra onun dəyəri çox olacaq. Görkəmli tənqidçi Sabir Bəşirov “Kredo” qəzetinin yazarı və böyük təəssübkeşi idi. O, bizim Yardımlıda qəzeti çox böyük həvəslə yayırdı. Sizi elə ilk dəfə o “Kredo”dan tanımışım və Allahıma şükranlıyam.

**Kamil Allahyarov:** “Kredo” qəzetinin bütün həmkarlarını təbrik edirəm. Qəzetə və onun baş redaktoru olan Əli Rza müəllimə uzun ömür arzulayıram.

**Azər Abdulla:** Alqışlar! Allah enerjini və istedadını daha da artırsın.

**Abuzər Ələkbərov:** Əli Rza müəllim, var olun! Sizin xidmətləriniz ölçüyəgəlməzdir. Hər kəs öz vəzifəsini sizin kimi vicdanla yerinə yetirsə, problemlərimiz azalar, vallah!

**Yusif Dirili:** Dəyərlimiz, sayın baş yazar, uğurlarınız səngiməsin, bitməsin, tükənməsin. Hər zaman kredolularla birgə “Kredo”nun başında. Necə deyərlər, sükanı belə saxlayır.

**Vüqar Əhməd:** Var ol, layiqli Vətən oğlu, Əli Rza Xələfli!

**Nurəddin Hacıyev:** Əli Rza müəllim, Sizi və kollektivnizi "Kredo" qəzetinin 1000-ci sayı və 21 yaşı münasibətilə ürəkdən təbrik edirəm! Sizə bu yolda yeni-yeni uğurlar və müvəffəqiyyətlər arzu edirəm. Allah (c.c.) sizi qorusun! Amin.

**Vüqar Əsgərov:** Əli Rza Xələfli doğrudan da Vətənə, xalqa bağlı bir insandır. Allah qorusun!

**Elxas Comərd:** Çox xoş oldu, oxudum, məlumatım oldu. Əli Rza müəllimlə çoxdan tanışlığımız vardı. "Abşeron" qəzetinindən tanıdığım, Vaqif Alkərəmovun vasitəsilə lap yaxından tanımışam. Ona qədər, xətrini dünyalar qədər istədiyim, kompüter yığıcısı Sevda xanıma qəzet materialların yığdırmağa gedəndə, "Kredo"nun redaksiyasının qarşısında, ağayana dayanıb siqaret çəkən Əli Rza müəllimlə mehribancasına salamlaşırdıq. Arada da söhbətlərimiz olardı. Belə dəyərli bir insanın, ziyalılığı davranışıyla, təmkiniylə söhbətdaşına aşılayan birin get-gedə tanıdıqca lap sevinirdim. Bu gün Nəzirməmməd Zöhrablının yazısın oxuduqca qəlbimə xoş ilğım doldu, gözüm güldü, sifətimdə gülüş cizgileri yarandı. Çünki, bilirəm ki, yaradıcı insanın bir yazısı, kitabı işıq üzü görəndə dünyanın ən xoşbəxti sanır özün. Qəzetçinin də, qəzetinin yubiley sayı. Bu xoş gündə Əlirza müəllimin və eləcə də kredosevərlərin bayramına qoşulub ürəkdən təbrik edirəm. Ağayana duruşla "Kredo" qəzetinin redaksiyası qarşısında durub, siqaretin çəkərək 2000-ci sayınınçıxarmasını arzulayirama.lqışlayıram sizi.

**Əli Rza Xələfli:** Elxas Comerd, qardaş... çox səmimi qeydlərinə görə var ol... nə qədər qürurlandım... Sizlərsiz yaşamaq çətin olardı...

**Amil Ceferov:** Hər hansı bir insanın və ya mətbuatın fəaliyyəti;ömrü heç də onun ömr sürdüyü zamanın, vaxtın uzun müddətli olması ilə deyil, onun cəmiyyətə verdiyi töhfə ilə millimənəvi dəyərləri lazımi səviyyədə millətə çatdırmağı ilə millətə dövlətə və dövlətçiliyə xidmətiləölçülməlidir, bu mənada "Kredo"-nun millətin təbirincə desək Əli Rza qardaşımızın xidmətini birmənalı şəkildə tam dəyərləndimək fikrimcə mümkün değildir! Təbrik edirəm!, KREDO, Əli Rza Xələflinin həyat kredosudur!

**Əlabbas Bağırov:** Eşq olsun Əlirza qardaşımıza.

**Eldar Səfa: “KREDO” - Ə.R.XƏLƏFLİ MƏNİM DƏDƏ OCAĞIM OLUB!**

**SSLİ RZA XSSLSSFLİ:** Sağ olun, əziz dostlar, sizsiz yaşamaq mənə çətin olardı!

*15.06.2020*